iki sahil.- 2019.- 25 iyun.- S.4

# İsfəndiyarın Vətənə sevgi payı



Məqsədi eldə nəciblik, halallıq, doğma torpağa məhəbbət olan Mədətovları yaşadıqları Lerik rayonunun Cəngəmiran kəndində hamı özünə doğma bilir. Alicənablıq, insanpərvərlik, etibar, sədaqət bu ailənin bütün üzvlərinin həyat fəlsəfəsidir. Bu halal ocağın İsfəndiyar adında bir şəhid övladı da vardır. İsfəndiyar elə oğlan idi ki, sanki Azərbaycanın ürəyindən qopmuşdu. Ürəyini Azərbaycana verməklə də bunu sübut etdi. İndi təkcə Mədətovlar deyil, bütün Lerik camaatı bu Vətən sevdalı igidin adı çəkiləndə qürur duyur, iftixar hissi keçirir. Şəhidlik əlçatmaz, ünyetməz bir zirvədir. O müqəddəsliyə yalnız Vətən eşqli İsfəndiyar kimi dağ əzəmətli, dağ vüqarlı oğullar ucalır.

İsfəndiyar Mühacir oğlu Mədətov 1992-ci ildə həqiqi hərbi xidmətə yola düşəndə erməni dığalarının ölkəmizə hərbi təcavüzü təhlükəli bir hal almışdı. Belə bir gündə Vətənə can borcunu şərəflə ödəmək bacarığına malik oğullar gərək idi. Məhz bunu dərindən başa düşən İsfəndiyar bir çox qeyrətli Vətən övladları kimi, Qarabağ torpaqlarının müdafiəsinə ön cəbhənin ən qaynar nöqtələrindən qalxır. Ağdam, Ağdərə, Füzuli uğrunda qanlı döyüşlərdə düşmənə qarşı mərdliklə vuruşur. Göstərdiyi şücaət əsgər yoldaşları üçün əsl igidlik nümunəsi olur. Hər döyüşdə öz dəstəsi ilə xeyli sayda erməni dığasını məhv edir.

12 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Vaqauz kəndi uğrunda qeyri-bərabər, ölüm-dirim savaşında İsfəndiyar tarixə yazılası bir qəhrəmanlığa imza atır. O, 6 nəfər yoldaşı ilə düşmən pusqusuna düşür. Əsgər yoldaşları şəhid olsalar da, İsfəndiyar son gülləsinə qədər döyüşməklə erməni dığalardan intiqamını alır. Şəhidlərin nəşlərini götürmək üçün həmin əraziyə gedən hərbçilərimiz 32 erməni cəsədini görürlər.

İsfəndiyar 11 aprel 1994-cü ildə Ağdərənin Talış kəndində torpaq uğrunda canını qurban verir. Onun əbədiyyətə qovuşması ürəkdən bağlandığı Vətənə məhəbbət payı olur. Beləcə də qısa, mənalı ömür yolu gələcək nəsillərə həyat məktəbi olaraq zaman-zaman ürəklərdə var olmaq şərəfini qazanır.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*